## **Azərbaycan Respublikası ilə *Liviya* arasında Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi aşağıdakı heyətdə təsdiq edilsin:

**Komissiyanın həmsədri**

Xələf **Xələfov** - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

**Komissiyanın üzvləri:**[2]

*İlham **Quliyev***[3] - Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini

*Firudin **Qurbanov*** - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Abbas **Vəlibəyov** - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

*Elmir **Vəlizadə*** - *Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini*[4]

~~*Ehtiram **Rəhimov***~~ ~~*- Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini*~~[5]

Elşad **Nəsirov** - Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti

~~*Ağasəlim **Şükürov***~~[6] ~~*- Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsindəki fövqəladə və səlahiyyətli səfiri*~~

Bəxtiyar **Alışov** - Azərbaycan Respublikası İqtisadiyyat ~~və Sənaye~~ Nazirliyinin Ticarət siyasəti və Ümumdünya Ticarət Təşkilatı şöbəsinin müdiri[7]

*Nahid **Məmmədov*** - Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası~~*, ictimai məsələlər və analitik təhlil*~~ şöbəsinin müdiri

2. "Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli, 1342 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 9, maddə 516) 1-ci bəndi qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası ilə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi arasında Müştərək Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibi barədə Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi tərəfinə müvafiq bildiriş göndərsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 noyabr 2008-ci il
57

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 13 sentyabr 2010-cu il tarixli **325** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 09, maddə 773**)
2. 8 fevral 2012-ci il tarixli **2023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 12 fevral 2012-ci il, 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 131**)
3. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**)

4. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )

5. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Respublika” qəzeti, 09 sentyabr 2016-cı il, 198 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**)

6. 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**)

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Respublika” qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə adında və mətnində “**Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi**” sözləri “**Liviya**” sözü ilə əvəz edilmişdir.

[2] 13 sentyabr 2010-cu il tarixli **325** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, 09, maddə 773**) **ilə** 1-ci bəndində “**Elşad Nəsirov — Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti**” sözlərindən sonra “**Ağasəlim Şükürov — Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsindəki fövqəladə və səlahiyyətli səfiri**” sözləri əlavə edilmişdir və “**Rüfət Mahmud**” sözləri “**Anar Kərimov**” sözləri ilə əvəz edilmişdir.

8 fevral 2012-ci il tarixli **2023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Azərbaycan” qəzeti, 12 fevral 2012-ci il, 34, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 131**) ilə “**Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini**” sözləri “**Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini**” sözləri ilə və “**Anar Kərimov - Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri**” sözləri “**Bəxtiyar Alışov - Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin Xarici ticarət siyasəti və Ümumdünya Ticarət Təşkilatı şöbəsinin müdiri**” sözləri ilə əvəz edilmişdir və “**İsmayıl İsmayılov - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini**” sözlərindən sonra “**Qüdrət Qurbanov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi**” sözləri əlavə edilmişdir.

[3] 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Respublika” qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissədə “**Bəhram Əliyev**” sözləri “**İlham Quliyev**” sözləri ilə, “**Qulu Novruzov**” sözləri “**Firudin Qurbanov**” sözləri ilə, “**Qüdrət Qurbanov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının rəisi**” sözləri “**Ehtiram Rəhimov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini**” sözləri ilə və “**Ceyhun Məmmədov**” sözləri “**Nahid Məmmədov**” sözləri ilə əvəz edilmişdir.

[4] 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində “**İsmayıl İsmayılov - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini**” sözlərindən sonra “**Elmir Vəlizadə - Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini**” sözləri əlavə edilmişdir.

[5] 1 avqust 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 8, maddə 1677**) ilə 1-ci hissəsində “**Ehtiram Rəhimov - Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyası rəisinin müavini**” sözləri çıxarılmışdır.

[6] 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**“Respublika” qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissədən “**Ağasəlim Şükürov – Azərbaycan Respublikasının Böyük Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsindəki fövqəladə və səlahiyyətli səfiri**” sözləri və ”, **ictimai məsələlər və analitik təhlil”** sözləri çıxarılmışdır.

[7] 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**“Azərbaycan” qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində “**İqtisadi İnkişaf Nazirliyinin Xarici ticarət**” sözləri “**İqtisadiyyat və Sənaye Nazirliyinin Ticarət**” sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**“Respublika” qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən “**və sənaye**” sözləri çıxarılmışdır.